# Füzuli Beynəlxalq Hava Limanının tikintisinin qısa müddətdə tamamlanması Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir




***Füzuli, Zəngilan və Laçın hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Bərpa çərçivəsində gerçəkləşdirilən layihələr sırasında Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanı ilə yanaşı, Laçın və Zəngilan rayonlarında da aeroportların tikintisi həm sosial-iqtisadi, həm də strateji cəhətdən olduqca böyük önəm daşıyır. Azərbaycan dövləti mövcud imkanlardan səmərəli yararlanaraq, bu prosesi qısa müddətdə yekunlaşdırmağa çalışır.

Prezident İlham Əliyev bir müddət bundan əvvəl Laçında olarkən, burada hava limanının təməlqoyma mərasimində çıxış edərək, dedi: “Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verilib…”.

Beləliklə, Zəngilan, Laçın və Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına, həm yük, həm sərnişin daşınmasına, həm də Azərbaycanın öz hərbi gücünü artırmağa, hərbi infrastrukturu yaratmağa böyük töhfə verəcək.

Sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsindən əvvəl, Bakıdan uçan “Azərbaycan Hava Yolları”na məxsus ən böyük “Airbus A340-500” tipli və simvolik olaraq “Qarabağ” adını daşıyan sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək, işğaldan azad olunan Qarabağın ilk hava limanında eniş icra edib. Bundan əlavə, Azərbaycanın “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan “Boeing 747-400” tipli hava verəcək. Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava hərəkətini idarəetmə (HHİ) qülləsinin tikintisi də başa çatıb. Bunun sayəsində Füzuli hava limanında ICAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) standartlarına müvafiq qaydada uçuşlara başlamaq mümkün olacaq. Aeronaviqasiya sisteminə və işğaldan azad edilən ərazilər üzərindən uçuşlara tam nəzarəti təmin etmək üçün yeni beynəlxalq hava yolları tətbiq olunur.

Gələcək aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də artıq hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi başa çatıb.

Bu ayın sonunda istifadəyə verilməsi planlaşdırılan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib. Həmçinin Füzuli Beynəlxalq Hava Limanını “Zəfər yolu” və Şuşa şəhərinə aparan magistral yol ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Bundan əlavə, hava limanının ərazisində yaşıllaşdırma işləri aparılır.

inşası üzrə layihə meneceri Selim Akbay isə bildirib ki, kompleksin inşasına başlayanda bu ərazidə heç nə yox idi. Hər yer minalı vəziyyətdə idi. Təmizləmə işləri üç üsulla–əl ilə, mexaniki və xüsusi təlim keçmiş itlər vasitəsilə aparıldı. Ümumilikdə 3500 hektar ərazidən 20 minə yaxın mina və silah-sursat aşkar edilərək zərərsizləşdirildi. Əraziyə elektrik enerjisi verildi və işə yüksək ovqatla başlanıldı. Bir sözlə, Azərbaycan dövləti tikinti üçün lazım olan bütün zəruri addımları atdı.

S.Akbay əlavə edib ki, bu layihədə fəaliyyət göstərən minə yaxın şəxs öz işini ürəklə yerinə yetirdi: “Burada çalışan heç bir kəsə “Yaxşı işlə, tez işlə” kimi sözlər deyilmədi. Obyektdə layihənin icrasına Türkiyə və digər ölkələrdə hava limanında çalışmış, təcrübəli mütəxəssislər dəvət olundular.

Hazırda burada 12 türk firması fəaliyyət göstərir. İnşaat üçün Türkiyə, Rusiya, Çin, Amerika, Almaniya, İtaliya, İspaniya və Finlandiyadan beynəlxalq standartlara uyğun tikinti materialları, avadanlıqları və aeroport avadanlıqları gətirilib. Düşünürəm ki, bir ay ərzində – sentyabrın sonuna qədər layihəmizi tamamlayacağıq”.

*(ardı 3-cü səhifədə)*

# Füzuli Beynəlxalq Hava Limanının tikintisinin qısa müddətdə tamamlanması Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir

*(əvvəli 1-ci səhifədə)*

Füzuli Beynəlxalq Hava Limanı Qarabağ və Şərqi Zəngəzurun bərpası, inkişafı üçün mühüm önəm daşıyır. Aeroportun bu iqtisadi bölgələrdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından böyük əhəmiyyəti var.

Füzuli aeroportu regionda ən qısa zamanda inşa edilən beynəlxalq hava limanlarından biridir. Bu ilin əvvəlində inşasına başlanan kompleksdə artıq məlum olduğu kimi, ilk sınaq uçuşları həyata keçirilib. Ümumiyyətlə, cəmi 4 aya yaxın bir müddətdə hava limanının ilkin infrastrukturunu əsaslı şəkildə formalaşdırmaq mümkün olub.

Hava limanı uzunluğu 3 kilometr, eni 60 metr olan uçuş enmə zolağı, 60 min kvadratmetrlik 8 hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərəcək terminal, hava gəmilərinin idarəedilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Aeroport, eyni zamanda, 1 saat ərzində 200 sərnişinə xidmət edə biləcək.




Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından da olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı isə kifayət qədər çoxdur. Füzulidə hava limanının tikilməsi imkan verəcək ki, həmin turistlər daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa düşməndən təmizlənən ərazilərimizə səfər edə bilsinlər. Həmçinin aeroport yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir.

İşğaldan azad olunmuş ərazilərimizin sənaye potensialını da nəzərə alsaq, Füzulidə açılacaq hava limanı həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında da beynəlxalq hava limanlarının tikintisi uğurla davam edir.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 sentyabr.- S.1;3.